# Yadigar Muradov: "Deyirdilər ki, filankəs səni işdən çıxaracaq"...

(əvvəli ötən sayımızda)

***Üzeyir müharibəyə gedəndən sonra şəkər xəstəliyi tapdım...***

**- ”Xarıbülbül” festivalında da Şuşa Teatrının kollektivini səhnədə görmədik...**

- Heydər Əliyev Fondundan bizə konsertdə iştirakla bağlı heç nə deyilmədi. Deyilsəydi, bayaq dediyim ki, hazır maraqlı musiqili-ədəbi kompozisiyamız vardı. Bizim teatrın kollektivindən 13 nəfər ”Xarıbülbül” Festivalına qatıldıq, amma tamaçaşı kimi... Heç məni aparmaq istəmirdilər. Kimsə deyib ki, Yadigar Muradov ağdamlıdır, şuşalı deyil... Yəni Yadigar Muradov Ağdamda doğulduğu üçün ora gedə bilməz. Mən də dedim ki, harda doğulmağımdan asılı olmayaraq, 31 ildir ki, Şuşa Dövlət Musiqili Dram Teatrının direktoruyam. Bu teatrı mən yaratmışam 41 il əvvəl. Orda mənim o boyda evim qalıb. Mən Şuşalı olmasaydım mənə şəhərin mərkəzində o yeri kim verərdi? Şuşalı olmasaydım mənə o evi tikdirmək üçün icazə verilərdimi? O evin tikilməsi ilə bağlı sərəncam, layihəsi və digər sənədlər indi də məndə durur. Lap mən Kürdəmirdə doğulmuşam, hazırda Şuşa Teatrının ki, direktoruyam... Axirda bir söz dedim ondan sonra lap yumşaldılar...

Mənim oğlum Üzeyir ”Green card”la neçə il idi ki, Amerikada yaşayırdı. Soruşdum ki, mənim oğlum, ABŞ-dan təcili gəlib könüllü olaraq Ağdam Hərbi Komissarlığından qeydiyyatdan keçib Vətən Müharibəsinə getdi, yoxsa Şuşa Hərbi Komissarlığından. Özü diş həkimidi, həkim kimi müraciət etdi, aparmadılar, dedilər ki, sən Hava Hücumundan Müdafiə Qoşunlarında əsgər olmusan. Ona görə də, mən dedim ki, necə deyirlər elə də get, ona görə sıravi döyüşçü kimi müharibəyə getdi.

**- Döyüşdüyünə görə orden ya medal aldımı?**

- Heç nə almayıb. Bircə hərbi biletinə müharibədə iştirak etməsi yazılıb.

Mənim bacılarımın nəvələri də Vətən Müharibəsində iştirak edib, şükür Allaha onlar da sağ-salamat qayıdıb gəldilər. İnanın, onlar sağsalamat müharibədən qayıdanda ata-anası qurban kəsmək istədi, qoymadılar ki, adam müharibədən ya şəhid qayıdar, ya da qazi. Çox adam toya el şənliyi deyir. Amma toy ayrı şeydir, el şənliyi ayrı şey.

Mən evlərimi o toylarla tikmişəm, övladlarımı böyütmüşəm, oxutmuşam, maşınımı almışam, övladlarımı evləndirmişəm. İndi il yarımdır toylar dayandırılıb, inşallah iyulun-1-də açılacaq. Amma daha daha səhhətim əvvəlki kimi imkan vermir. Üzeyir müharibəyə gedəndən sonra şəkər xəstəliyi tapdım, siqareti 17 ildi atmışdım, indi gündə 4 qutu çəkirəm. Yəni toydan ona görə danışdım ki, oynamaq üstündə toyda cavanlar nə oyundan çıxırdılarsa, inanmazdım ki, onlar düşmənin üstünə elə gedəcəklər. Toyda oynamaq üstdə şuluq salan uşaqlar gedib erməni öldürmək üstdə dava salırdılar.

***Şuşanı 30 il arzulayıb təzədən Bakıda qalmaq ayıb olar...***



**- Yadigar müəllim, ömrünüzün yarısı Bakıda keçib. Şuşa Teatrı da Bakıda tanındı, aktyorları burda məşhurlaşdılar, sevildilər, kinoya seriallara çəkildilər. Gedəndən sonra Bakıdan ötrü darıxmayacaqsız ki?**

- Mən Bakıda təhsil aldığım illərimdə də fikrim həmişə Şuşada idi. Bakı gözəl şəhərdi, paytaxtımızdır, amma Şuşanı 30 il arzulayıb təzədən Bakıda qalmaq ayıb olar. Həm də biz işlə əlaqədar olaraq tez-tez Bakıya gələcəyik də, niyə darıxım ki? Yox e, Şuşada olsam Bakıdan ötrü darıxmaram.

***“Aşıq Yediyar” həqiqəti deyə-deyə bilirsən mənə nə pul qazandırıb?..***

**- ”Aşıq Yediyar”ı yaman tez yaradıcılıqdan uzaqlaşdırdız...**

- Bir dəfə xalq yazıçısı Elçin Əfəndiyev mədəniyyət naziri Polad Bülbüloğlunun yanında dedi ki, sən yeni bir satirik-publisistik janr yaratmısan, bəlkə də xəbərin yoxdur...

Mənim ”Qulp”da oxuduğum mahnılar bütün səviyyələrdə qəbul olunurdu. Bir dəfə Novruz bayramında Qoşa Qala qapısında çəkilişdə idik, prezidentin mühafizəçisi bizə dedi ki, Heydər Əliyev sizi çağırır. Getdik Ümummili lider bizimlə söhbət elədi, yumurta döyüşdürdü, şəkillər çəkdirdik və bizə dedi ki, davam edin, bizə satira lazımdır.

Onun sözündən sonra daha da həvəslənib satiramızın ”doza”sını bir az da qaldırdıq. Sonra necə oldusa bizim verilişin ”Qulp”unu burdular... Elə yenidən ”Qulp”un fəaliyyətini bərpa etmək istəyirdik ki, ANS fəaliyyətini dayandırdı. Sonra mənim özümə başqa kanallardan təkliflər gəldi ki, Aşıq Yediyar kimi veriliş aparıb mahnılar oxuyum. Onda soruşdum ki, satira olacaqmı? Dedilər ki, yox, yalnız yumor olsun. Mən də razılaşmadım. Biz o vaxt ”Qulp” maraqlı alınsın deyə, nələr etmirdik. O vaxt yadınıza gəlir, Hacıbala Abutalıbov Bakı şəhərində dəmir köşklərin yığılması barədə tapşırıq vermişdi. Biz də ”Qoy sənin dalınca doyunca baxım” adlı mahnıya klip çəkirdik. Həmin köşkü kran qaldıranda mən də yuxarı qalxdım, ordan əlimi buraxanda altında daş qaldı, ayağım sındı. Sonralar ”Aşıq Yediyar” kimi guya yumoristik səviyyəsiz aşıq obrazları yaratdılar... Mənim oxuduşum mahnılar bu gün də dillər əzbəridir. ”Aşıq Yediyar” 20 il əvvəl meydana çıxmış bir obrazdır bu gün də sevilir. Onu bəlkə bir tamaşaya da daxil etdim. Nəsə indi hamı satiradan qorxur. Əvvəllər satirik kino jurnal vardı- ”Mozalan”.

Satirik kinolar çəkilir, tamaşalar səhnəyə qoyulurdu. İndi yalnız yumordur. O da aşağı səviyyədə. Kimsə nəyisə tənqid edib özünü pis eləmək istəmir. Mən ömür boyu kimsədən çəkinmədən həqiqəti demişəm. Hətta deyirdilər ki, filankəs səni işdən çıxaracaq. Amma həmin adam deyib ki, Yadigar düz deyir də.

Doğrudur, həmin adamla böyük mübahisəmiz düşüb, sözümü deyib kabinetdən çıxmışam ki, gedib şələ-şüləmi yığışdırım gedim, yanındakı adama deyib ki, Yadigar düz deyir... Həqiqəti demək lazımdır. Hətta Nüsrət Kəsəmənlinin sözü olmasın, həqiqəti haylıküylü yalanların içində pıçıltı ilə deməklə də olsa...

***Həqiqəti pıçıltıyla dedilər***
***Haylı-küylü yalanların içində.***
***Həqiqəti daim başda gördülər***
***Oda düşüb yananların içində...***

Bəzən elə olur ki, həqiqəti demək olmaz, çünki qırmızı çizgi var da... Bilirəm ki, onu desəm, çox şeydən ola bilərəm, misal üçün, işimi itirə bilərəm. Ha özümü çıxıram ki deməyim, amma deyirəm...

Çünki sonra təəssüflənib dizimə vuracam ki, niyə vaxtında onu düz demədim? Ona görə də, həmişə düz danışıram. ”Aşıq Yediyar” həqiqəti deyə-deyə. bilirsən mənə nə pul qazandırıb? Bəzən toy sahibləri şikayət edirdilər ki, sən filan mahnını oxudun, filan müəllimin xətrinə dəydi. Mən elə filan müəllimin xətrinə dəymək üçün oxuyurdum da...

**Söhbətləşdi:**
**İltifat HACIXANOĞLU**